*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 3-10*

**İRADƏ İSRAFİL QIZI KƏRİMOVA**
***Bakı Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru***

# AZƏRBAYCANDA ANA DİLİNDƏ İLK ORTA MƏKTƏB VƏ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN İBTİDAİ SİNİF DƏRSLİKLƏRİNDƏ AZƏRBAYCAN DİLİ TƏDRİSİNİN ƏSAS PROBLEMLƏRİ HAQQINDA

**İndi Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır. Hazırda ölkəmizdə cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, Azərbaycan dili orada rahat işlədilə bilməsin.**

***Ümummilli Lider Heydər Əliyev***

**Açar sözlər:** Ana dili, Azərbaycan dilinin tədrisi, ana dilində ilk orta məktəb, məsuliyyət, ibtidai sinif dərslikləri, ibtidai sinif müəllimləri.
**Ключевые слова:** Родной язык, преподавание азербайджанского языка, первая средняя школа на родном языке, ответственность, учебники для начальной школы, учителя начальной школы.
**Key words:** Native language, teaching the Azerbaijani language, the first secondary school in the native language, responsibility, high school textbooks, primary school teachers.

Gözümüzü həyata açandan anamızın dilindən laylalarla eşitdiyimiz gözəl, musiqili və mükəmməl dildir dogma ana dilimiz. Vətənimiz Azərbaycan olduğu üçün, azərbaycanlı olduğumuz üçün, Azərbaycan dilində dil açdığımız üçün Azərbaycan dili adlanır ana dilimiz. Ana dilimiz bizi azərbaycanlı kimi bütün dünyaya tanıdır və bizim kimliyimizi, hansı millətə məxsus olduğumuzu sübut edir. Bəli, anamızın dilindən "ilk mahnımız" olan laylalarla eşitdiyimiz dogma ana dilimizi Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə belə tərənnüm edir:

Dil açanda ilk dəfə «ana» söyləyirik biz,
«Ana dili» adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.

Bəxtiyar Vahabzadə (3,8)

Umummilli Lider Heydər Əliyevin ana dilinin, Azərbaycan xalqının milli dilinin siyasi hüquqi statusunun möhkəmləndirilməsi istiqamətində atdığı

addımlardan biri də 2001-ci il iyunun 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanıdır. Bu Fərmanda Ulu Öndər Azərbaycan ədəbi dilinin normalarına lazımınca əməl edilməməsini xüsusilə qeyd edir: "Ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də hələ görüləsi işlər çoxdur. Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, milli-mədəni inkişaf tariximizin tələblərinə cavab verən tədris işinin təkmilləşdirilməsinə ehtiyac vardır" (1,1).

"Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" ölkə başçısı Cənab İlham Əliyevin Fərmanında oxuyuruq: "Ana dilinə dövlət qayğısının artırılması, dilçilik sahəsində fundamental və tətbiqi araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaranmışdır" (2,187).

Türkiyə Cümhuriyyəti Türk Dil Kurumunun devizlərindən biri – "Dilimiz kimliyimizdir" ifadəsidir. Bu fikirlər filologiya üzrə elmlər doktoru Sərdar Zeynalın "Dilimiz kimliyimizdir" sərlövhəli məqaləsində yer alıb. Biz kimliyimizi beşikdən anlamağa başlasaq da, ana dilimizə ilk elmi yanaşmamız orta məktəbdən başlanır. Bu baxımdan orta məktəbdəki ana dili dərsliklərimiz hamımız üçün irsi əhəmiyyət kəsb edir (7,1).

Azərbaycan Xalq Cümhuriyyəti yaradılana qədər Azərbaycanda ana dilində orta məktəb yox idi. Ana dili o dövrün orta təhsil ocağı sayılan realnı məktəblərdə həftədə bir-iki dəfə keçirilir və məcburi olmayan fənn hesab olunurdu.

1918-ci ilin 28 may tarixində Azərbaycan xalqının həyatında çox mühüm bir hadisə baş verdi. Şərqdə ilk müstəqil, demokratik, parlamentli Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında İstiqlal Bəyannaməsi elan edildi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti milli tariximizə ilk dəfə Azərbaycan türkcəsini dövlət dili elan edərək dövlət dilini təhsil müəssisələrinin əsas tədris dilinə çevirmişdir. İlk müasir ali təhsil və elm ocağı təsis etmiş, ilk milli məktəblər şəbəkəsi yaradaraq, ilk məktəbəqədər tərbiyə müəssisələrinin əsasını qoyan AXC 100 nəfər azərbaycanlı gənci (dövlət səviyyəsində) xarici ölkələrin ali təhsil müəssisələrinə oxumağa göndərmişdir.

İlk dəfə olaraq ana dili bərabərhüquqlu dil kimi elan edildi və azərbaycanlılar öz ana dilində oxumağın nəinki mümkün olduğunu, hətta zəruri olduğunu başa düşdülər. Arxiv materialları göstərir ki, bu tədbirlər çox çətin və mürəkkəb şəraitdə həyata keçirilirdi. Uşaqları ana dilli, yeni məzmunlu proqram və dərsliklərlə fəaliyyət göstərən məktəblərə cəlb etmək çox çətin idi.

Professor Fərrux Rüstəmov özünün "Milli maarifimizin qaranquşları" adlı məqaləsində məktəbin yaranmasının böyük əhəmiyyət kəsb etdiyini göstərərək yazır: "İlk dəfə orta təhsilin milliləşdirilməsi ADR dövründə həyata keçirilmişdir ki, bu da qüdrətli sənətkarımız Abdulla Şaiqin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə bütün dərslər rus dilində keçirilən Bakı I realnı məktəbinin nəzdində Azərbaycan dili üzrə

üç aylıq kurs açıldı. Bu kursu qurtaran şagirdlər üçün 49 rus sinfi olan Bakı I realnı məktəbində bütün dərslər Azərbaycan dilində keçirilən bir sinif (üçüncü sinif) açıldı. Bu sinifdə 25 şagird oxuyurdu. Onlar 1924-cü ildə ana dilində orta məktəbi bitirən ilk məzunlar oldular. Azərbaycanda milli kadrların yetişdirilməsində sonralar "Abdulla Şaiq adına nümunə məktəbi" kimi şöhrət qazanmış həmin milliləşdirilmiş məktəbin böyük əhəmiyyəti olmuşdur"(8,4).

Orta məktəblərdə Azərbaycan dili tədrisinin əsas problemlərindən biri dərsliklərdir. Demək olar ki, bir müddət ana dilnə aid heç bir dərslik materialı olmamış, müəllimlərin bir çoxu əsərlərə müraciət edərək Azərbaycan dilinin gözəlliyi və zənginliyi haqqında məlumat vermişlər. Orta əsrlərdə bu məsələ ilə bağlı tədqiqat işləri aparılsa da, ana dilinə aid ilk dərslik və əsərlər XIX əsdən yazılmağa başladı.

Azərbaycan dili müəllimləri xüsusilə diqqətli olmalıdırlar, çünki bu fənn sadəcə bir fənn deyil, dövlət dilimizdir, millətimizin ana dilidir. Ona görə də bu proses ailədən başlayaraq fənn müəllimlər tərəfindən sevgi və hörmətlə tədris edilməlidir.

Orta məktəblər üçün kamil dərsliklərin hazırlanıb nəşr edilməsinə çalışan, uzun illər dərslik müəllifi kimi fəaliyyət göstərən akademik Tofiq Hacıyev bu sahə ilə bağlı öz fikirlərini cəmləşdirərək yazır: "İbtidai siniflərin dərsliklərinin, xüsusilə "Ana dili" kitablarının dilindən bütövlükdə tədris prosesi ilə bağlı çox şey asılıdır. Bu siniflər gələcəkdə onilliyi başa vuranlar üçün sanki bünövrədir, onillik təhsilə fon verir. Ümumiyyətlə uşaqların başqa elmləri öyrənmələri də onların dil səviyyələri ilə bilavasitə bağlıdır" (4, 75).

Akademik Tofiq Hacıyev 1985-ci ildə "Dil mədəniyyəti" jurnalında dərc olunan "Ana dili dərsliklərinin dili haqqında" məqaləsində qeyd edir ki, dərsliklərin hazırlanmasında şagirdlərin yaş səviyyəsini nəzərə almaq lazımdır. Bu düzdür. Ancaq bu prinsipdən sui-istifadə etmək də olmaz. Uşaq hesab eləyib uşaqlara bəsit şeylər danışmaq yaramaz. Təbiət, cəmiyyət haqqında uşaqlarda yaş səviyyəsinə uyğun, lakin bəsit yox, dolğun məzmunlu məlumat yaratmağın qayğısına qalmaq lazımdır. Bütün bu işlərdə dərsliklərin dili mühüm, bəlkə də, əsas faktordur. Həm də uşaqlar buradan ana dilini öyrənirlər (4,72).

Akademik ibtidai sinif dərsliklərindən danışarkən qeyd edit ki, uşaq-şagird kitabı müqəddəs hesab edir, müəllimin dediyindən çox, kitabdan oxuduqlarına inanır. Elə buna görə də dərsliyin dili müəllimin nitqindən daha çox diqqətçəkən, orada öz əksini tapan mətnlərdəki məzmun daha çox inandırıcı və qəbuledilən olmalıdır. İbtidai siniflərin dərsliklərinin, xüsusilə "Ana dili" kitablarının dilindən bütövlükdə tədris prosesi ilə bağlı çox şey asılıdır. Bu siniflər gələcəkdə onilliyi başa vuranlar üçün sanki bünövrədir, onillik təhsilə fon verir. Ümumiyyətlə uşaqların başqa elmləri öyrənmələri də onların dil səviyyələri ilə bilavasitə bağlıdır (72-79).

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 3-10*

O, dərsliklərin hazırlanmasında dərslik müəlliflərinin böyük məsuliyyət daşıdıqlarını diqqətə çatdırır. Müəlliflər dərslik hazırlayarkən həmin dərsliklərə daxil edilən elmi və bədii mətnlərin dilinə, elmi dəyərinə məsuliyyətlə yanaşmalı, bütün dil tələblərini gözləməlidirlər.

Onun orta məktəb dərsliklərinin dili ilə bağlı irəli sürdüyü fikirlər bu gün də aktuallığını itirməyib. Dili qəliz, başa düşülməsi çətin, ifadəsi ağır olan mətnlərin və elmi fikirlərin şagirdlər tərəfindən qavranılması bugünkü təcrübəmizdən də görünür ki, verilən elmi fikirlər mürəkkəb və başa düşülməsi çətin olan elmi cümlələr içərisində əriyir, itib batır, şagirdin öyrənmək istədiyi elmi məlumatı dərk etmək onun üçün ağır bir işgəncəyə çevrilir.

Dərsliklər haqqında bu cür fikirlər yazan alimlər özləri əlbəttə ki, dərsliklər yazarkən qeyd etdikləri nöqsanlara yol verməməlidirlər.

İbtidai sinif şagirdi hamıdan çox kitaba inanır və onda kitaba qarşı şübhə yaratmaq çox təhlükəlidir. Qeyri-dəqiq bir şey görən şagirdin inamı itir, ruhdan düşür.

Müasir inkişaf mərhələsini yaşayan Azərbaycan təhsilindən danışarkən ümumtəhsil məktəblərinin dərsliklərindən danışmamaq mümkün deyil. Orta məktəblərdə tədris edilən dərsləklərimizdə hələ də ciddi problemlər özünü göstərməkdədir.

Uşağın ana dilində düzgün dil açıb danışa bilmək məsuliyyəti ananın, dilin düzgün inkişaf etdirilib söz ehtiyatının zənginləşdirilməsi və nitqin düzgün inkişaf etdirilməsi məsuliyyəti isə məktəbin müəllimlərinin üzərinə düşür. Ana dilinin qorunması və təbliği həm ailədə, həm də məktəbdə aparılmalıdır.

Ana dilini səlis bilmək həm də müxtəlif əcnəbi dilləri öyrənmək prosesində böyük əhəmiyyətə malikdir. Əgər şagirdin ana dili düzgün şəkildə formalaşarsa, şagird digər dilləri çox rahatlıqla öyrənə bilər, çünki öz ana dilini mükəmməl bilməyən başqa dilləri öyrənə bilməz, öyrənsə də öz doğma dili kimi yarımçıq öyrənəcək – ana dilini bildiyi qədər.

"Azərbaycan təhsili müasir inkişaf mərhələsini yaşayır. Orta məktəblərdə ana dilimizlə yanaşı, xarici dillər də tədris olunur. Bu gün ölkəmizdə türk, rus, ingilis, fransız və s. kimi dillərdə və həmin ölkələrin proqramları ilə fəaliyyət göstərən məktəblər və ya bölmələr var". Bu fikirlər Azərbaycan Respublikası Təhsil İnstitutunun (ARTİ) direktoru Rüfət Əzizovun "Azərbaycan dilinin tədrisində nəyi dəyişməli?" adlı məqaləsində qeyd olunub. Məqalədə bildirilir ki, dil millətin varlığının başlıca göstəricisidir və ana dili hər bir insanın milli kimliyinin, mənəvi, şəxsi, sosial, mədəni və bəşəri dəyərlərinin formalaşmasında mühüm rol oynayır. Ana dilini yaxşı bilən şəxs fikir və düşüncələrini səlis və aydın şəkildə ifadə edə bilir, insanlarla ünsiyyət zamanı çətinlik çəkmir"(5, 3).

Sosial Tədqiqatlar Mərkəzi İctimai Rəyin Öyrənilməsi Departamentinin baş məsləhətçisi Əfqan Əliyev yazır: "Heç şübhəsiz, keyfiyyətli dərslik tədris prosesində

qarşıya çıxa biləcək bir çox problemi aradan qaldırır, təlimin səmərəliliyini artırır, şagirdlərin biliklərinin sistemləşdirilməsinə, yaradıcılıq qabiliyyətlərinin inkişafına imkan verir. Keyfiyyətli dərsliyin metodoloji əsasını elmi və pedaqoji yanaşmalar arasında diskussiyalar təşkil edir. Bu onunla izah edilir ki, dərslik müəllifləri müasir elmlərdə qəbul edilən ən son versiyaları və hadisələrin şərhlərini yaxşı bilməlidirlər. Ümumiyyətlə, dərslik təhsil sahəsində iş təcrübəsi olan və tədris prosesinin iştirakçılarının xüsusi ehtiyaclarını başa düşən müəlliflər tərəfindən yazılmalıdır. Beynəlxalq təcrübəyə görə, dərs vəsaitlərinin nəşri hər bir ölkənin Təhsil Nazirliyi tərəfindən təsdiqlənmiş tədris proqramlarına ciddi əməl edilməklə özəl nəşriyyatlar tərəfindən həyata keçirilir” (6,3).

Dərsliklərdəki mövzuları uşaqların çox çətin qavradığını, əsasən də Azərbaycan dili, ədəbiyyat və ibtidai sinif dərsliklərində verilən çalışmalar uşaqların yaş səviyyəsinə uyğun olmalıdır. Məktəblilərin göz yaddaşının daha çox inkişaf etdirilməsi üçün (xüsusilə ibtidai sinif şagirdlərinin) dərsliklərinin tərtibatına yüksək ixtisaslı poliqrafçılar cəlb edilməli, xüsusi maraq doğuran illüstrasiyalar yerləşdirilməli, bir sözlə, kiçik detallar belə nəzərə alınmalıdır. Təhsil Nazirliyi son illər bu sahədə bir sıra ciddi addımlar atıb: məktəb dərsliklərinin ekspertizası və qiymətləndirilməsini həyata keçirmək məqsədi ilə təsis edilmiş Dərslikləri Qiymətləndirmə Şurasında yeni seçkilər keçirilib, ehtiyat dərsliklər fondu yaradılıb, dərsliklərin ictimai müzakirəsi təşkil edilib, dərsliklərin hazırlanması və tətbiqi prosedurlarında dəyişikliklər edilib, dərsliklərin monitorinqini aparmaq, müəllimlərin dərsliklər haqqında fikirlərini, irad və təkliflərini öyrənmək üçün işçi qrupları yaradılıb. Bundan başqa, Azərbaycan Respublikasının Təhsil İnstitutunda dərsliklərlə bağlı ayrıca şöbə yaradılıb. Dərsliklərin hazırlanmasında əsas məqsəd məktəbliləri müasir standartlara uyğun bilik, bacarıq və vərdişlərə yiyələndirmək, vətəninə, xalqına, onun adət-ənənələrinə bələd olan, milli və ümumbəşəri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaşlar kimi yetişdirməkdir. Bu işdə təkcə dərsliklərin məzmunu deyil, onların yazılma metodikası, üslubu, tərtibatı, keyfiyyəti məsələləri də diqqət mərkəzində olmalıdır. Dərsliklərin yazılmasında psixoloqların iştirakı nəzərə alınmalıdır, çünki şagirdləri düzgün yaş həddinə görə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişlərə, düşünməyə sövq etmələri, məntiqi təfəkkürlərinin yaş həddinə görə düzgün inkişaf etdirmələri üçün psixoloqun iştirakı vacibdir.

Görkəmli rus pedaqoqu K.D.Uşinskinin qeyd etdiyi kimi, əgər biz həkimlərə öz sağlamlığımızı etibar ediriksə, müəllimlərə uşağımızın əxlaqını, ruhunu, bütün bunlarla bərabər, öz Vətənimizin gələcəyini etibar edirik. Şəxsiyyətin inkişafına və müəyyənləşməsinə yalnız şəxsiyyət təsir göstərə bilər. Xarakteri yalnız xarakter yarada bilər. Təhsildə keyfiyyət məsələsi həmişə gündəmdə olmuşdur. Aydındır ki, məktəb varsa, keyfiyyət də olmalıdır. Müasir dövrümüzdə bu problem hamını narahat edən problemlərdən biridir. “Təhsildə keyfiyyət aparici istiqamətlərdən biri

kimi" metodik vəsaitində qeyd olunur ki, şagirdlərin bilik, bacarıq vərdişlərini, vətəndaşlıq səviyyəsini qiymətləndirmək pedaqoji elm sahəsinə aid olmasına baxmayaraq, bu problem həm də təhsil müəssisəsini idarə edən məktəb rəhbərlərinə – təhsil menecerlərinə də aiddir. Oxucular razılaşarlar ki, məktəb elmi əsaslarla idarə olunmursa, təhsilin keyfiyyəti vaxtlı-vaxtında təhlil edilmirsə, monitorinqlər keçirilmirsə, belə müəssisədə keyfiyyətdən danışmaq olmaz. Məhz bunu nəzərə alaraq psixoloqlar, tərbiyə sahəsində çalışan mütəxəssislər idarəetmə terminindən çox müvəffəqiyyətlə istifadə edirlər və öz fəaliyyətlərində biliklərin mənimsənilməsi prosesinin idarə olunmasını, şagirdlərin tərbiyə prosesinin təşkilati tədbirlər vasitəsilə həyata keçirilməsini qeyd edirlər. Bütün bu biliklər, onlardan müəllifin öz təcrübəsində istifadə etməsi və bugünkü təhsil sisteminin təcrübəsi ilə müqayisəsi və əldə edilən nəticələr təhsil işçiləri üçün maraqlı olar (9,27).

Bəzən orta məktəb müəllimləri bu prosesdən kənarda qalır, dərsliklərin yazılmasına ali məktəb müəllimləri, hətta repetitorlar cəlb olunur. Lakin bu proses orta məktəb müəllimlərinin, Dövlət İmtahan Mərkəzinin ekspertlərinin, ölkənin ayrı-ayrı məktəblərinin qabaqcıl müəllimlərinin müzakirəsi, əlavə və dəyişiklikləri nəzərə alındıqdan sonra çap olunmalıdır. Prosesdə müəyyən iş təcrübəsinə malik olan ümumtəhsil məktəblərinin dərslik müəllifləri, elmi redactorlar iştirak etməlidirlər. "Orta məktəb dərsliklərinin vəziyyətinə dair hesabatin icmalı"nda " qeyd olunur ki, "...Ana dilini yaxşı bilən şəxs fikir və düşüncələrini səlis və aydın şəkildə ifadə edə bilir, insanlarla ünsiyyət zamanı çətinlik çəkmir. İbtidai siniflər üzrə hazırlanan I-IV sinif Azərbaycan dili dərsliklərində öyrədilən sözlərdən ibarət orfoqrafiya və izahlı lüğətin hazırlanması şagird nailiyyətlərinin yüksəldilməsinə öz töhfəsini verə bilər. Müəyyən tədris mərhələsində şagirdlərin malik olduqları söz ehtiyatını müəyyənləşdirməyə və uyğun söz bazası əsasında qiymətləndirmə materiallarının hazırlanmasına da ehtiyac var" (6,3).

Azərbaycan dili müəllimləri xüsusilə diqqətli olmalıdırlar, çünki bu fənn sadəcə bir fənn deyil, dövlət dilimizdir, millətimizin ana dilidir. Ona görə də bu proses ailədən başlayaraq fənn müəllimləri tərəfindən sevgi və hörmətlə tədris edilməlidir. Dərsliklərdə Azərbaycanın Milli Qəhrəmanları, 44 günlük Vətən müharbəsi şəhidləri, qazilər və digər şəxsiyyətlər haqqında materialların verilməsi əlbəttə ki, vacibdir. Sevindirici haldır ki, Azərbaycan dilinin tədrisi təkmilləşdirilir. Bəs Azərbaycan dilini ümumtəhsil müəssisələrində tədris edən müəllimlər problemin çıxış yolunu nədə görürlər? Bu suala ümumtəhsil məktəblərinin Azərbaycan dilini tədris edən müəllimlərinin obyektiv cavab verməsi daha məqsədəuyğundur.

Əlbəttə ki, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan dilinin tədrisinin orta təhsildən başlayıb, ali təhsildə davam etdirilməsi təhsilin ümdə vəzifəsidir. Ancaq bu, sadəcə təhsilin vəzifəsi olaraq qalmamalıdır. Dilin qorunması və təbliği həm ailədə, həm də məktəbdə aparılmalıdır:

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 3-10*

## Ədəbiyyat

1. Umummilli Lider Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı. "Azərbaycan" qəzeti, 18 iyun 2001-ci il.
2.Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmani.Azərbaycan Respublikası Prezidentinin Fərmanlari və Sərəncamlari. səh.187, Bakı, 2013.
3.Bəxtiyar Vahabzadə.Seçilmiş əsərləri 2 cilddə.1-ci cild "Öndər Nəşriyyat" Baki-2004, səhifə 8.
4.Tofiq Hacıyev.Ana dili dərsliklərinin dili haqqında. Dil Mədəniyyəti jurnalı VI. "Elm" nəşriyyatı, 1985, səh.72-79.
5.Rüfət Əzizov. Azərbaycan dilinin tədrisində nəyi dəyişməli? Azərbaycan müəllimi" qəzeti 20 Avqust 2021.
6.Əfqan Əliyev. Orta məktəb dərsliklərinin vəziyyətinə dair hesabatin icmali. Sosial Tədqiqatlar Mərkəzi. Bakı, avqust 2020.
7.Sərdar Zeynal. Dilimiz kimliyimizdir. Bakı, AZƏRTAC, 26.11.2021.
8. Fərrux Rüstəmov Ana dilində ilk milli məktəb - Azərbaycan Xalq Cümhuriyyəti – 100. "Milli maarifimizin qaranquşları". 525-ci qəzet. 1 mart, 2018, S.4.
9.Ramiz Məmmədzadə. Təhsildə keyfiyyət aparici istiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010. –170 s.

**İradə İsrafil qızı Kərimova**

**Xülasə**

**AZƏRBAYCANDA ANA DİLİNDƏ İLK ORTA MƏKTƏB VƏ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN İBTİDAİ SİNİF DƏRSLİKLƏRİNDƏ AZƏRBAYCAN DİLİ TƏDRİSİNİN ƏSAS PROBLEMLƏRİ HAQQINDA**

Məqalədə Azərbaycanda ilk ana dili məktəbinin yaradılması haqqında məlumat verilir. Ümumtəhsil məktəblərinin "Azərbaycan dili" dərsliklərində ana dilinin tədrisi tədqiq edilir. Azərbaycan dilinin tədrisi problemləri haqqında mülahizələr araşdırılır. Ulu Öndərimiz Heydər Əliyevin ana dili haqqında dəyərli fikirləri məqalədə öz əksini tapmışdır. Məqalədə ölkə başçısı Cənab İlham Əliyevin 1 noyabr 2018-ci il Fərmanından sitat verilib. Qeyd olunur ki, Azərbaycan Xalq Cümhuriyyəti yaradılana qədər Azərbaycanda ana dilində orta məktəb olmayıb. İlk dəfə orta təhsilin milliləşdirilməsi ADR dövründə həyata keçirilmişdir ki, bu da qüdrətli sənətkarımız Abdulla Şaiqin adı ilə bağlıdır. Tədqiq olunur ki, orta məktəblərdə Azərbaycan dili tədrisinin əsas problemlərindən biri dərsliklərdir. Demək olar ki, bir müddət ana dilnə aid heç bir dərslik materialı olmayıb. Müəllimlərin bir çoxu əsərlərə müraciət edərək Azərbaycan dilinin gözəlliyi və zənginliyi haqqında məlumat vermişlər. Orta əsrlərdə bu məsələ ilə bağlı tədqiqat işləri aparılsa da, ana dilinə aid ilk dərslik və əsərlər XIX əsdən yazılmağa başladı.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 3-10*

Araşdırılır ki, orta məktəb dərsliklərindəki nöqsanlardan biri də verilən mövzuları uşaqların çox çətin qavramasıdır. İbtidai sinif dərsliklərində verilən çalışmaların uşaqların yaş səviyyəsinə uyğun olmamasıdır. Göstərilir ki, Azərbaycan dili müəllimləri xüsusilə diqqətli olmalıdırlar. Müəllimlər bu fənni sadəcə bir fənn kimi deyil, dövlət dilimiz, millətimizin ana dili kimi tədris etməlidirlər. Bu prosesdə ailədən başlayaraq fənn müəllimləri şagirdlərdə doğma Azərbaycan dilinə məhəbbət və hörmət hissi aşılamalıdırlar.

**Керимова Ирада Исрафил кызы**

**Резюме**

## ПЕРВАЯ СРЕДНЯЯ ШКОЛА НА РОДНОМ ЯЗЫКЕ В АЗЕРБАЙДЖАНЕ И ОБ ОСНОВНЫХ ПРОБЛЕМАХ ОБУЧЕНИЯ АЗЕРБАЙДЖАНСКОМУ ЯЗЫКУ ПО УЧЕБНИКАМ НАЧАЛЬНЫХ КЛАССОВ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

В статье рассматриваются информация о создании первой в Азербайджане школы родного языка. Отмечается, что качество преподавания родного «азербайджанского языка» в общеобразовательных школах зависит не только от учителей, но и, конечно же, от качества учебников.

В статье отражены ценные слова великого лидера Гейдара Алиева о родном языке. Указывается, что Президент Азербайджана Господин Ильхам Алиев сегодня успешно продолжает эту политику. Цитируется Указ Президента страны Ильхама Алиева от 1 ноября 2018 года. Отмечается, что до создания Азербайджанской Демократической Республики в Азербайджане не было средней школы на родном языке. Впервые национализация среднего образования была осуществлена в период АДР, что связано с именем нашего могучего художника Абдуллы Шаига. Указывается, что как стало известно, учебники являются одной из главных проблем преподавания азербайджанского языка в средних школах. Можно сказать, что какое-то время учебников по родному языку не было. Многие преподаватели ссылались на произведения и давали информацию о красоте и богатстве азербайджанского языка. В средние века исследования по этому вопросу проводились, но первые учебники и труды, связанные с родным языком, изданы в XIX веке. Исследовано, что одним из недостатков школьных учебников является то, что предметы очень сложны для понимания детей. Причина в том, что занятия, проводимые на азербайджанском языке, литературе и по учебникам начальной школы, не соответствуют возрастному уровню детей.

Указано, что учителям азербайджанского языка следует быть особенно внимательны. Этот предмет учителя должны преподавать не просто как

предмет, а как наш государственный язык, родной язык нашей нации. В этом процессе, начиная с семьи, учителя должны прививать учащимся любовь и уважение к родному азербайджанскому языку.

**Summary**

**THE FIRST SECONDARY SCHOOL IN THE MOTHER TONGUE IN AZERBAIJAN AND ABOUT THE MAIN PROBLEMS OF TEACHING THE AZERBAIJAN LANGUAGE IN PRIMARY CLASS TEXTBOOKS OF GENERAL EDUCATION SCHOOLS**

**Kerimova İrada İsrafil**

The article provides information about the establishment of the first mother tongue school in Azerbaijan. It is noted that the quality of teaching the native language “Azerbaijani language” in secondary schools depends not only on teachers, but also, of course, on quality textbooks. The article reflects the valuable words of the great leader Heydar Aliyev about his native language.The article quoted the Decree of the President of the country Mr. Ilham Aliyev dated November 1, 2018.

It is noted that before the creation of the Azerbaijan Democratic Republic, there was no secondary school in Azerbaijan in its native language. For the first time, the nationalization of secondary education was carried out during the ADR period, which is associated with the name of our mighty artist Abdulla Shaig. It is indicated that, as it became known, textbooks are one of the main problems in teaching the Azerbaijani language in secondary schools. It can be said that for some time there were no textbooks related to the mother tongue. Many of the teachers referred to the works and gave information about the beauty and richness of the Azerbaijani language. In the Middle Ages, research on this issue was carried out, but the first textbooks and works related to the native language began to be written in the XIX th century. It is researched that one of the shortcomings of the high school textbooks is that the subjects are very difficult for children to understand. The reason is that classes conducted in the Azerbaijani language, literature and elementary school textbooks do not correspond to the age level of the children.

It is shown that Azerbaijani language teachers should be especially careful.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Cavanşir Muradov**